


“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 iyun 2022-ci il №43 (2654) https://mod.gov.az Qiyməti 30 qəpik


## “Teknofest Azərbaycan-Türkiyə qardaşlığının öz gənclərinə olan inamının təsdiqidir”




Elm və texnologiyanın müasir dövrün tələbləri əsasında qurulması və inkişaf etdirilməsi gənc nəslin üzərinə düşən əsas vəzifələrdən biridir. Dövlətimizin başçısı İlham Əliyevin Azərbaycan Gənclərinin Birinci Forumunun 20 illiyi münasibətilə keçirilən görüşdə dediyi fikirlərdə tərəqqinin və inkişafın təməlində təhsil və bilik səviyyəsinin dayanması xüsusi vurğulanmışdı. "...Elmin, təhsilin inkişafı, infrastruktur layihələrinin icrası - bütün bunlar ölkəmizi gücləndirir... Əlbəttə, mən çox istərdim ki, Azərbaycanda alimlər ixtiralar ortaya qoysunlar, dünya elminə töhfələr versinlər. Əminəm ki, bu olacaq. Amma indiki dövrdə biz Azərbaycana qabaqcıl texnologiyaları gətirməliyik və kadr potensialı da hazırlanmalıdır ki, gələcəkdə texnoloji tərəqqidən kənarda qalmayaq. Bundan sonrakı dövrdə həm siyasi müstəvidə, həm də iqtisadi və hərbi sahələrdə texnologiyalar, bilik, savad hər şeyi həll edəcək. Bu gün artıq hərbi sahədə yeni texnologiyalar hər şeyi dəyişir. O qədər də böyük orduya malik olmayan ölkələr bəlkə də hərbi cəhətdən ən güclü ölkələrə çevrilir. Ona görə biz bu sahəni daim diqqət mərkəzində saxlamalıyıq. Ona görə Azərbaycanda elmin inkişafına, yeni texnologiyaların, İKT-nin (İnformasiya və Kommunikasiya Texnologiyaları), kosmik sənayenin inkişafına böyük diqqət verilir. Təkcə ona görə yox ki, biz bu sahəni yaradaq və onunla öyünək. Ona görə ki, bu, intellektual inkişafa təkan verir. Xüsusilə bu, gənclərə aiddir. Burada təhsil, bilik ön plandadır..." Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinə bu gün müdrik, uzaqgörən siyasətin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xüsusi diqqət yetirir. Bu gün dövlətimizin inkişafı üçün yüksək intellektual potensiala malik gənclərin yetişdirilməsi dövlət rəhbərliyi tərəfindən qarşıya qoyulan əsas tapşırıqlardan biridir. Belə ki, gələcəyin qurucuları olan gənclərdə yeni texnologiyaya marağın artırılması, innovativ təşəbbüsün möhkəmləndirilməsi məqsədilə ölkə rəhbərliyi tərəfindən mühüm layihələr həyata keçirilir. Təsdiq edilmiş Dövlət Proqramları çərçivəsində minlərlə Azərbaycan gənci dünyanın nüfuzlu ali məktəblərində təhsil almaqdadır. Dövlət Proqramları çərçivəsində gənclərimizin həm ölkə hüdudlarında, həm də ölkə sərhədlərindən kənarda keçirilən elmi, texnoloji, intellektual sahələrdə təcrübə keçməsi, cəmiyyətin avanqard qüvvəsinə çevrilməsi ölkəmizin də seçdiyi prioritet istiqamətlərdəndir.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin məlumatına əsasən, paytaxtımızda keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalında Heydər Əliyev adına Hərbi İnstitutun kursantlarının hazırladığı "Xilaskar" pilotsuz uçuş aparatı "Pilotsuz Uçuş Aparatları" müsabiqəsinin "B" kateqoriyası üzrə 3-cü yerə layiq görülüb. Bu münasibətlə Milli Müdafiə Universitetinin rektoru vəzifəsini icra edən professor, general-leytenant Heydər Piriyev Heydər Əliyev adına Hərbi İnstitutun "Hərbi Hava Qüvvələri" komandasını təltif edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb, nailiyyətlərini davam etdirmələri istiqamətində öz tövsiyələrini verib.

**(Ardı 3-cü səhifədə)**

## Hərbi qulluqçuların “TEKNOFEST Azərbaycan”da iştirakı yüksək qiymətləndirilib

*Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalının təşkilində, eləcə də keçirilməsində fəal iştirak edən Azərbaycan Ordusunun hərbi qulluqçularını mükafatlandırıb.*

Qeyd edilib ki, Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq nümunələrindən biri olan festivalda hər iki ölkənin hərbi pilotlarının birgə uçuşları, Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlılarının çıxışları, eləcə də Müdafiə Nazirliyi üçün ayrılan pavilyonda təqdim olunan müasir hərbi-texniki avadanlıqlar ziyarətçilərin böyük marağına səbəb olub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın festivalda çıxışlarının ordumuzda təhlili və şəxsi heyət arasında təbliğ edilməsinin əhəmiyyəti xüsusi vurğulanıb.

Hər iki qardaş ölkə arasında əlaqələrin inkişafında dövlət başçılarının dostluq münasibətlərinin mühüm rol oynadığını bildirən nazir 2021-ci il iyunun 15-də imzalanan "Şuşa Bəyannaməsi"nin bu istiqamətdə atılan mühüm addımlardan biri olduğunu diqqətə çatdırıb. Bəyannamənin tələblərindən irəli gələn fəaliyyətlərin Azərbaycan Ordusunda planlı şəkildə yerinə yetirildiyi qeyd olunub.

Sonda "TEKNOFEST Azərbaycan" festivalında iştirak edən hərbi qulluqçuların təltif edilməsi barədə müdafiə nazirinin əmri aidiyyəti üzrə çatdırılıb. Əmrə əsasən, festivalda fəal iştirak edən hərbi qulluqçular fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## “Can Azərbaycanda gənclərimizin “iki dövlət, bir millət, bir festival!” anlayışı ilə necə qucaqlaşdıqlarının birlikdə şahidi olduq”

*Can Azərbaycanda TEKNOFEST düşüncəli gənclərimizin "iki dövlət, bir millət, bir festival!" anlayışı ilə necə qucaqlaşdıqlarının birlikdə şahidi olduq. Azərbaycanlı qardaşlarımızın 28 May - Müstəqillik Gününü bütün mənalarda gözqamaşdırıcı bir texnoloji mərasimlə şərəfləndirdik.*

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sədri olduğu hakim Ədalət və İnkişaf Partiyasının Ankaranın Kızılcahamam rayonunda keçirilən 30-cu müşavirə və dəyərləndirmə toplantısındakı çıxışında ifadə edib.

Prezident İlham Əliyev ilə birlikdə Rize-Artvin Hava Limanını açdıqlarını xatırladan dövlət başçısı Ədalət və İnkişaf Partiyasının hakimiyyəti dövründə Türkiyədə nəqliyyat və infrastrukturun genişlənməsi, terrorla qətiyyətli mücadilə, iqtisadi inkişaf, ixracatın artırılması, xalqın rifahının yüksəlişi istiqamətində həyata keçirilən siyasətin nəticələrindən danışıb.

Türkiyənin dövlət sərhədi boyunca Suriya ərazisində təhlükəsizlik dəhlizinin qətiyyətlə qurulduğunu bildirən Prezident Rəcəb Tayyib Ərdoğan gündəlikdə duran digər məsələlərə də münasibət bildirərək, İsveç və Finlandiyanın NATO-ya üzvlüklə bağlı müraciətlərinə dair Türkiyənin dəyişməz mövqeyini təkrarlayaraq deyib ki, NATO terrorçuların təhlükəsizliyini təmin edəcək təşkilat deyil.

# Müdafiə Nazirliyində xidməti müşavirə keçirilib

*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, iyunun 4-də müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində xidməti müşavirə keçirilib.*

Müşavirədə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri iştirak edib. Azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik, birləşmə komandirləri müşavirəyə videobağlantı vasitəsilə qoşulublar.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları çatdırıb.

Müşavirədə ötən ay ərzində qoşun növlərinin fəaliyyəti qiymətləndirilib, döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyət, müdafiə sistemi və onun hərtərəfli təminatı məsələləri diqqətə çatdırılıb, qoşunların döyüş qabiliyyətinin daha da artırılması, eləcə də qarşılıqlı əlaqənin təkmilləşdirilməsi məqsədilə komandir-rəis heyəti qarşısında müvafiq tapşırıqlar qoyulub.

Müşavirədə real döyüş şəraitinə uyğun keçirilən təlim və praktiki məşqlərin intensivliyinin və keyfiyyətinin artırılmasının vacibliyi xüsusi qeyd edilib.

General-polkovnik Zakir Həsənov döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması, bölmələrimizə qarşı mümkün təxribatlara dərhal adekvat cavab tədbirlərinin görülməsi ilə bağlı konkret tapşırıqlar verib.



Müdafiə naziri müddətli həqiqi hərbi xidmətə yeni çağırılacaq gənc əsgərlərin fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi, onların hərbi xidmətə adaptasiyası, şəxsi heyətin xidməti təhlükəsizliyinin təmin edilməsi və sağlamlığının qorunması məsələlərinin diqqət mərkəzində saxlanılması ilə bağlı göstəriş verib.

Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə yaradılan Milli Müdafiə Universitetinin fəaliyyəti müsbət qiymətləndirilib.

Müdafiə naziri Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhid və qazilərimizin ailələrinin hər zaman olduğu kimi, 26 İyun - Silahlı Qüvvələr Günü ərəfəsində də diqqət mərkəzində saxlanılması ilə bağlı müvafiq vəzifəli şəxslər qarşısında tapşırıq qoyub.

Azad edilən ərazilərdə dislokasiya olunan hərbi hissələrdə qoşun xidmətinin təşkili, mühəndis təminatı üzrə zəruri tədbirlərin davam etdirilməsi, həmçinin hərbi infrastrukturun təkmilləşdirilməsi və təhlükəsizlik qaydalarına xüsusi diqqət yetirilməsinin vacibliyi vurğulanıb.

## Azərbaycanın müdafiə naziri “Efes-2022” təlimini izləyəcək

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın dəvəti ilə "Efes-2022" beynəlxalq təlimini izləmək üçün qardaş ölkəyə işgüzar səfər edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, səfər çərçivəsində general-polkovnik Zakir Həsənov Türkiyə Müdafiə Sənayesi Nazirliyinin təşkil etdiyi sərgini də ziyarət edəcək.

## Raket və artilleriya bölmələrində döyüş atışlı taktiki təlim keçirilib



Müdafiə nazirinin təsdiq etdiyi hazırlıq planına uyğun olaraq, Quru Qoşunlarının raket və artilleriya bölmələrinin özüyeriyən haubitsa heyətləri ilə döyüş atışlı taktiki təlim keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimin planına əsasən, atəş dəstəyi həyata keçirəcək bölmələr daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılaraq ehtiyat atəş və start mövqelərini tutublar.

Real döyüş şəraitinə uyğun keçirilən təlimdə şərti düşmən hədəflərinin sərrast atəşlə məhv edilməsi üzrə qarşıya qoyulan tapşırıqlar uğurla yerinə yetirilib.

## Türkiyənin TUSAŞ şirkəti uçuş aparatlarını sürətlə modernləşdirir

Türkiyənin aviasiya və kosmos sənayesində qazandığı son nailiyyətlər milli müdafiə sənayesində özünü daha dinamik şəkildə göstərməkdədir.

AZƏRTAC xəbər verir ki, İzmir şəhərində keçirilən "Efes-2022" çoxmillətli hərbi təlimlər çərçivəsində sərgilənən silah, sursat və avadanlıqlar bir daha göstərir ki, Türkiyə müdafiə sənayesinin istehsal məhsulları ilə özünün ordu arsenalını tam təmin etməkdə israrlıdır.

Türk Aviasiya və Kosmos Sənayesi (Türk Havacılık ve Uzay Sanayii-TUSAŞ) adıçəkilən sərgidə öz nadir məhsulları ilə daha çox cəlbedicilik yaradan qurumlar sırasındadır. TUSAŞ indiyədək 36 ANKA markalı pilotsuz uçuş aparatı istehsal edib. Bu aparatlar ümumilikdə 120 min kilometr uçuş həyata keçirib. Ən mühüm məsələlərdən biri də ANKA-ya olan xarici tələbatdır. Qazaxıstan və Malayziya bu aparatların ən fəal alıcılarındandır. ANKA və AKSUNGER uçuş aparatları SAR radarı vasitəsilə su hövzələrindəki minaları aşkarlamaq qabiliyyətinə malikdir. Hər iki aparat təxminən 100 kiloqrama qədər ağırlığında olan raketlər daşımaq imkanındadır.

## Quru Qoşunlarında döyüş atışlı taktiki təlim keçirilib

*Müdafiə nazirinin təsdiq etdiyi 2022-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, Quru Qoşunlarının hissə və bölmələrində döyüş atışlı taktiki təlim keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimə cəlb olunan motoatıcı, artilleriya və zirehli texnika bölmələri ssenariyə uyğun olaraq, aşkar olunan şərti düşmən hədəflərini qarşılıqlı əlaqədə məhv ediblər.

Təlimin keçirilməsində əsas məqsəd komandirlərin idarəetmə qabiliyyətini və



şəxsi heyətin praktiki bacarıqlarını inkişaf etdirmək, eləcə də bölmələr arasında qarşılıqlı əlaqəni təkmilləşdirməkdir.

Döyüş atışlı taktiki təlimlərdə qarşıya qoyulan tapşırıqlar bölmələr tərəfindən müvəffəqiyyətlə icra olunub.

### Nümunəvi xidmət

## “Biz Zəfərin əsgəri olduq”



Müddətdən artıq həqiqi hərbi xidmətə gələndə məqsədi erməni işğalı altında olan Vətən torpaqlarını azad edənlərin sırasında olmaq, əsgər kimi həmişə komandirlərin verdiyi bütün əmr və tapşırıqları vaxtında, dəqiq yerinə yetirmək, döyüşlər başlayanda düşməni məhv etmək üçün vacib olan bütün döyüş üsullarını öyrənmək idi. Bu niyyətlə ömür yolunu hərbi xidmətlə bağladı...

Əsgər Fərid Niyazi oğlu Abdullayev müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusudur. İsmayıllı rayonunun Hacıhətəmli kəndində dünyaya göz açıb. Hələ müddətli həqiqi hərbi xidmətini cəbhə bölgəsində keçəndə qərara gəlib ki, gələcək həyatını hərb peşəsinə bağlasın. Bu qərarın əsas səbəbi Vətən torpaqlarını azad görmək istəyi idi. Fərid hərb peşəsinin incəliklərini sevə-sevə öyrənməyə başladı. Öyrəndi... Öyrəndiklərini xidməti boyu tətbiq etdi. Fərid “Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu”na yazılanda öyrəndiklərini təkmilləşdirdi. Rabitəçi ixtisasına yiyələndi. İxtisas kursunu bitirdikdən sonra "N" hərbi hissəsində artilleriya bölməsinə təyin edildi.

F.Abdullayev kursda oxuduğu müddətdə rabitənin bütün növləri üzrə gərəkli biliklərə yiyələndi. Daha vacib olanı isə səyyar rabitə vasitələri idi ki, o, bununla döyüşdə lazım olan məlumatları həm ötürəcək, həm də qəbul edəcəkdi.

Əsgər dedi ki, İkinci Qarabağ müharibəsi başlayanda Cəbrayıl, Qubadlı istiqamətində döyüş əməliyyatlarında iştirak edib. "Çoxdan gözlədiyimiz gün gəlmişdi. Hamımız ruh yüksəkliyi ilə döyüş tapşırığını yerinə yetirirdik. Torpaqlarımız hissə-hissə, kənd-kənd düşmən tapdağından azad olunduqca daha da döyüşə ruhlanırdıq".

Əsgər F.Abdullayev döyüşlərdə fəal iştirak edib. Onun xidmətlərini dövlətimizin başçısı layiqincə qiymətləndirib. Abdullayev Fərid Niyazi oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Fərid Abdullayev də deyir ki, biz Zəfərin əsgəri olduq...

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# “Teknofest Azərbaycan-Türkiyə qardaşlığının öz gənclərinə olan inamının təsdiqidir”

**(Əvvəli 1-ci səhifədə)**



Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunun Hərbi Hava Qüvvələri fakültəsinin kursantları Davud Hüseynəliyev, Nihad Əşrəfov, Nicat Məcidov və Ruslan Sultanov 15 kilometr radiusda hərəkət etmək qabiliyyətinə malik, təminat tapşırıqları təyinatlı "Xilaskar" pilotsuz uçuş aparatını hazırlayaraq festival çərçivəsində keçirilən müsabiqəyə təqdim ediblər. Nəticə etibarilə "Pilotsuz Uçuş Aparatları" müsabiqəsinin "B" kateqoriyası üzrə 3-cü yerə layiq görülərək medal, sertifikat, kubok və pul mükafatı ilə təltif ediliblər. Bu münasibətlə festivalda fərqlənən kursantlarımızla görüşdük. İlk müsahibim Nicat Məcidov oldu. Yarışın şərtləri və keçirilməsi ilə bağlı bizi məlumatlandıran kursant dedi: "Keçirilən Aviasiya, Kosmik və Texnologiya Festivalı - "TEKNOFEST"in beynəlxalq "Pilotsuz Uçuş Aparatları" müsabiqəsinin "B" kateqoriyası üzrə şərtlərinə əsasən, ali təhsil müəssisələri tərəfindən uçuş aparatı dizayn edilir, müsabiqədə iştirak üçün təqdim olunur. Nümayiş etdirilən PUA-lar münsiflər heyəti tərəfindən qiymətləndirilir və qarşıya qoyulan tapşırıq müxtəlif mərhələlərdə (həm video formatda, həm də praktiki tətbiqetmə ilə) tam düzgün yerinə yetirildiyi təqdirdə uğurla sonlanmış hesab olunur. Qısa vaxt ərzində ərsəyə gətirdiyimiz "Xilaskar" pilotsuz uçuş aparatı 15 kilometr radiusda hərəkət etmək qabiliyyətinə malik müxtəlif təminat (ərzaq, tibbi ləvazimat, təchizat və s.) tapşırıqlarını icra edə bilmək imkanına malikdir. "Güclü komandalar var idi, inanmaq çətin idi ki, ilk dəfə iştirak etdiyimiz bu səviyyəli, mötəbər festivalda belə bir nəticə qazanacağıq. Əziyyətimiz bəhrəsiz qalmadı, üçüncü yerə layiq görülmək də bizim üçün böyük uğurdur. Komanda yoldaşlarım Davud Hüseynəliyev, Nihad Əşrəfov, Ruslan Sultanovla TÜBİTAK-ın prezidenti Hasan Mandal tərəfindən təltif edildik. Hər birimiz medallarla, komandamız isə kubok, sertifikat və pul mükafatı ilə təltif edildi. Ölkəmizdə aerokosmik texnologiyalara, müdafiə sənayesinə, rəqəmsal biliklərə malik və bu mövzularla yaxından maraqlanan soydaşlarımızı görmək mənim üçün həqiqətən qürurverici idi. "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalının keçirilməsi gənclər siyasətinə və ölkəmizin tərəqqisinə, inkişafına yönəldilmiş fəaliyyətlərdən biri olaraq tarixləşdi. Bu cür tədbirlər sayəsində bizim timsalımızda bütün istedadlı gənclərimizə dəstək göstərilməsi, kadr potensialımızın gücləndirilməsi və digər zəruri məsələlər bir daha diqqət mərkəzinə çıxır və bu məsələlərin innovativ həlləri üçün əlverişli zəmin yaradılır".



Kursant Davud Hüseynəliyev də festivalla bağlı maraqlı fikirlər dedi: "Ölkəmizdə ilk dəfə təşkil olunan "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı ömrümdə silinməz izlər qoydu. Qeyd etmək istərdim ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Nobel mükafatı laureatı Əziz Səncərin və bütün türk dünyasına yaxşı tanış olan Selçuk Bayraktarın iştirak etdiyi mötəbər tədbirdə yer almaq ən əlamətdar hadisə kimi yaddaşıma həkk olundu. Həmçinin ölkəmizdə ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" müsabiqəsində kursant yoldaşlarımla birlikdə iştirak etdiyimiz üçün qürurlandıq. İlk dəfə iştirakçısı olduğumuz müsabiqədə fəxri kürsüyə yüksəlmək isə qürurumuzu daha da artırdı. Ən böyük arzumuz ölkəmizin müdafiə sənayesinin inkişafına öz töhfəmizi verməkdir. Bu tədbirdə çoxlu sayda gənc soydaşlarımızla tanış olduq. Onların hər biri elmə, texnologiyaya dərin marağı olan gənclər idi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın da dediyi "Hər məsələdə olduğu kimi, müdafiə sənayesində də gənclərimizin biliklərinə, enerjisinə, əzminə, səylərinə güvənirik. "TEKNOFEST" məhz bu güvənin rəmzi olan tədbirdir" fikri Azərbaycan-Türkiyə qardaşlığının öz gənclərinə olan inamının təsdiqidir. Biz bundan sonra da ölkələrimizin uğurları üçün çalışacaq, texnoloji yeniliklərə, müasir elmi düşüncələrə əsaslanan fəaliyyətlərimizi uğurla davam etdirmək üçün əlimizdən gələni əsirgəməyəcəyik", - kursant belə dedi.

Kursant Nihad Əşrəfov da əlamətdar günün iştirakçısı olmaqdan və komandanlıq tərəfindən təltif olunmaqdan qürur hissi keçirdiyini bildirdi: "Bu gün sevincimizin həddi-hüdudu yoxdur. General-leytenant Heydər Piriyevin bizimlə görüşməsi, bizləri təltif etməsi hər birimiz üçün əvəzolunmaz stimul oldu. Göstərilən diqqət və qayğı hər birimizin əhval-ruhiyyəsinə müsbət təsir göstərməklə yanaşı, qarşıdakı xidmətimizin məsuliyyətini daha da artırır və qarşıda qazanılacaq yeni uğurlara səsləyir. Festivalda texnologiya və elm dahiləri ilə birlikdə olmaq, Əziz Səncər, Selçuk Bayraktar kimi mütəxəssislərdən məsləhətlər və təbriklər almaq çox qürurverici idi. Üzərimizə düşən vəzifənin öhdəsindən bundan sonra da layiqincə gəlməyə çalışacağıq. Çünki bu, bizim həm hərbçi, həm də vətəndaşlıq borcumuzdur".

Kursant Ruslan Sultanov qeyd etdi ki, müasir dövrün tələbləri çərçivəsində təşkil olunan "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı müddətində çoxsaylı şagird, tələbə, yerli və xarici vətəndaşların iştirak etməsi və Müdafiə Nazirliyinin pavilyonlarına maraq göstərməsi və Türkiyə-Azərbaycan qardaşlığının böyük təzahürü hər bir vətənpərvər türk övladı üçün fəxr olunası hadisədir. Müsabiqədə ilk dəfə çıxış etməsinə baxmayaraq, komandamız üçüncü yeri tutdu. Təbii ki, könül istərdi ki, birinci olaq, lakin birinci olanlar da bizim əziz və doğmalarımız idi, o qədər də məyus olmuruq. "TEKNOFEST" boyunca səmada süzən Hərbi Hava Qüvvələrinin şahinlərinin şousu, Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlılarının təqdim etdiyi müxtəlif çıxışlar hər birimizin marağına səbəb oldu. Həmçinin qonaqlar Müdafiə Nazirliyimizin stendləri ilə də tanış oldular, burada nümayiş etdirilən nümunələri böyük maraqla qarşıladılar. Müstəqillik Günündə Müzəffər Ali Baş Komandan İlham Əliyevin, qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın festivalı ziyarət etməsi hər birimizə könül xoşluğu aşıladı. Dövlət başçılarının Azərbaycan-Türkiyə qardaşlığı, birliyi, gücü haqqında çıxışları hamımızın qəlbini fərəhləndirirdi. "TEKNOFEST Azərbaycan" festivalı bizim birliyimizdən əlavə, gücümüzün və müttəfiqliyimizin də bütün dünyaya nümayişi oldu. Yaşasın Türkiyə-Azərbaycan qardaşlığı!"



Sonda Heydər Əliyev adına Hərbi İnstitutun Hərbi Hava Qüvvələri fakültəsinin baş müəllimi mayor Qurban Paşayev festivalın tarixindən və ölkəmizdə möhtəşəm təşkilindən danışdı. "2018-ci ildən etibarən hər il təşkil olunan "TEKNOFEST" Aviasiya, Kosmos və Texnologiya Festivalında 2021-ci ildən iştirak edən ölkəmiz bu il mayın 26-29 tarixlərində adı çəkilən festivala ev sahibliyi etdi. "TEKNOFEST"in Türkiyə hüdudlarından kənarda ilk dəfə məhz paytaxtımızda keçirilməsi və 28 May - Azərbaycan Respublikasının Müstəqillik Gününə təsadüf etməsi iki ölkə arasındakı münasibətlərin möhkəmliyinin və sarsılmazlığının göstəricisi idi. Məlumdur ki, ölkəmizdə keçirilən festival maraqla qarşılandı. Burada Azərbaycan Ordusunun da şəxsi heyəti iştirak edirdi. Tədbir boyunca keçirilən hava şoularında ordumuzun dəmir şahinləri - Azərbaycan Ordusunun Hərbi Hava Qüvvələrinin təcrübəli pilotları solo və komanda şəklində uçuşlar həyata keçirdilər. Onlarla birlikdə qardaş Türkiyənin "Türk Ulduzları" və "Solo Türk" aerobatika komandalarının, helikopterlərinin və PUA-ların da iştirakı ilə nümunəvi uçuşlar yerinə yetirildi. Bundan başqa, Müdafiə Nazirliyi üçün ayrılan pavilyonda arsenalımızda olan müasir hərbi-texniki avadanlıqlar ziyarətçilərin böyük marağına səbəb oldu. Hər iki ölkənin elm və təhsil nümayəndələrinin, gənclərinin (şagird və tələbələr), vətəndaşlarının iştirakı ilə keçirilən festivalda nümayiş etdirilən şouproqramlar, burada salınmış müxtəlif pavilyonlarda texnika, layihə və məhsullarla (müxtəlif texnologiyalar, müdafiə sənayesi, innovativ sahibkarlıq və s. təyinatlı) tanışlıq və müxtəlif innovativ attraksionlarda simulyatorlarda turlar təşkil olundu. Bir sözlə, bu festival Azərbaycan və Türkiyənin qardaşlığının, müttəfiqliyinin təsdiqi ilə yanaşı, hər iki ölkənin gənclər siyasətinə, dövrün standartlarına, elmi tərəqqiyə verdiyi önəmin də təzahürü oldu. Belə tədbirlər gələcəyimizin memarları olacaq gənclərin ölkə tərəqqisinə, iqtisadi, elmi, texnoloji inkişafına təkan verəcək amillərdir. Bunun üçün də ilk dəfə paytaxtımızda keçirilən gəncliyin bilik yarışı, texnologiya festivalı olan "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı uzun illər yaddaşlarda qalacaq, gələcəkdə ölkəmizin alim, mütəxəssis və mühəndislərinin yetişməsinə mühüm təkan verəcəkdir.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Xüsusi təyinatlı təhsil müəssisələri ziyarət olunub





Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetinin tərkibində fəaliyyət göstərən Hərbi İdarəetmə İnstitutunun Strateji araşdırmalar və dövlət müdafiəsini idarəetmə akademik kursunun rəhbər heyəti ilə dinləyiciləri Heydər Əliyev adına Hərbi İnstitutu, eləcə də Cəmşid Naxçıvanski adına Hərbi Liseyi ziyarət ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, ziyarətçilər hərbi təhsil müəssisələrində ümummilli lider Heydər Əliyevin abidəsi və büstü önünə gül dəstələri qoyublar.

Qonaqlara müəssisələrin yaranma tarixi, həmçinin ümumi fəaliyyətinə dair geniş brifinqlər təqdim edilib.

Sonra akademik kursun rəhbər heyəti ilə dinləyicilər tədris ocaqlarının ərazisi, muzeylər və sinif otaqları ilə tanış olublar.

Sonda xatirə fotosu çəkdirilib.

# “Qələbə güc, iradə və ruh yüksəkliyi hesabına qazanılır”

***Müsahibimiz Vətən müharibəsində düşmənə qarşı ləyaqətlə vuruşan baş leytenant İsmayıl Qasım oğlu Mustafayevdir. O, 18 dekabr 1995-ci ildə Bakı şəhərində anadan olub. Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix fakültəsinin məzunudur. "N" hərbi hissəsində xidmətdədir.***



Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən Vətən müharibəsində xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiyinə, Talış və Suqovuşan kəndlərinin işğaldan azad edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik göstərdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, "Suqovuşanın azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif olunub.

**- İnsanın məcburiyyətdən deyil, mənəvi meyillərə uyğun bir peşə seçməsi həm onun dünyagörüşünün, həm də fərdi xüsusiyyətlərinin təcəssümüdür. Həyat yolunuzu bu peşə ilə bağlamağınıza hansı amillər təsir edib?**

- Bəşər tarixinin ilk milyarderi Con Devidson Rokfellerin belə bir deyimi var: "Sizin gələcək rifahınız öz verdiyiniz qərarlardan asılıdır". Peşə seçərkən verdiyiniz qərar həyatınızın gedişini müəyyənləşdirir. Peşəni düzgün seçmək, sevdiyin işi görmək isə çox vacibdir və uğurların təməlidir. Elə seçim etməlisən ki, səni görəcəyin işə bağlayan amillər olsun. Müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxıldıqdan bir ildən az keçmişdi ki, həyat yolumu hərb sənətinə bağladım. Əslində, seçimimi illər öncə etmişdim. Bu şərəfli peşəyə məni bağlayan bir çox amillər var idi. Əsas amillərdən biri də ailəmdə hərbçi peşəsinə verilən yüksək dəyər idi. Dayım kapitan Mirəli Cüməli oğlu Nuhov Birinci Qarabağ müharibəsində döyüşüb. 1993-cü ildə şəhidlik zirvəsinə ucalıb. Babamın qardaşı polkovnik Xıdır Həsən oğlu Mustafayev Sovet İttifaqı Qəhrəmanıdır. O, 1943-cü ilin payızında Ukraynanın paytaxtı Kiyevin azad edilməsi uğrunda döyüşlərdə xüsusilə fərqlənmişdir. Atam hərbçi olmasa da, 1990-cı illərdə Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparanlardan, azadlıq hərəkatında iştirak edənlərdən olub. Bütün bu amillər də həyat yoluma təsirsiz ötüşməyib. Xıdır babamın, dayımın və onlar kimi minlərlə Azərbaycan oğullarının qəhrəmanlıqlarını eşitdikcə hərbi peşəyə marağım artırdı. Əsgəri xidmətdə olanda bu peşəyə sevgim və bağlılığım daha da artdı, hərbçi olmaq qərarım qətiləşdi. Müqəddəs vəzifələr yerinə yetirənlərdən, Vətən müdafiəçilərindən olmağı qarşıma məqsəd qoydum.

**- Torpaqlarımızı işğaldan azad etmək məqsədilə əks-hücum əməliyyatında iştirak etmisiniz. Həsrətində olduğumuz haqq savaşımız gerçəkləşəndə hansı hissləri keçirdiniz?**



- Dövlət və xalq olaraq hər zaman sülh danışıqlarının tərəfdarı olsaq da, torpaqlarımızı erməni işğalçılarından təmizləmək üçün gücümüzü səfərbər etməyə həmişə hazır idik. Demək olar ki, Azərbaycan Ordusu bu savaşa 30 ilə yaxın idi hazırlaşırdı. Ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu parlaq ordu quruculuğu siyasətinin Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi nəticəsində güclü maddi-texniki bazaya malik qüdrətli ordumuz formalaşıb. Hələ 2016-cı ilin Aprel döyüşlərində düşmən Azərbaycan Ordusunun gücünü görmüşdü. Bir neçə gün davam edən Aprel döyüşlərində ordumuz düşmən üzərində inamlı qələbə qazanaraq, minlərlə hektar ərazini və mühüm strateji yüksəklikləri azad etdi. Aprel zəfəri Böyük Qələbənin başlanğıcı oldu.

2020-ci il sentyabrın 27-də işğalçı erməni ordusunun cəbhə boyu genişmiqyaslı təxribatlarının qarşısı qətiyyətlə alındı. Ali Baş Komandanın əmri ilə ordumuz əks-hücum əməliyyatına başladı. Həmin gün çox sevindik, qürurlandıq. Otuz ilə yaxın idi ki, bu günün həsrətindəydik. Bölməmizdə hər kəs əmin idi ki, qələbə bizim olacaq. Həm Ali Baş Komandanımızın siyasi iradəsinə, həm də ordumuzun gücünə sonsuz inanırdıq. Hər birimizin tək bir amalı var idi - ən qısa zamanda düşməni torpaqlarımızdan qovub, ərazi bütövlüyümüzü təmin etmək, bizə güvənən xalqımıza böyük qələbə sevincini yaşatmaq. Şükürlər olsun ki, məqsədimizə nail olduq.

**- Bu şanlı qələbəmizdə əməyi olan igid oğullarımızla xalqımız fəxr edir. Siz qalib ordunun qalib nümayəndəsisiniz. Haqq savaşımızda hansı istiqamətlərdə döyüşürdünüz?**

- Qələbə güc, iradə və ruh yüksəkliyi hesabına qazanılır. Bizlər də dözümlə, səbirlə və ən əsası Vətən sevgisi ilə döyüşdük. Döyüşçülərin sırasında olmağın qürurunu yaşayırdım. Murovdağ istiqamətində, eləcə də Talış və Suqovuşan kəndlərinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişəm. Murovdağ istiqamətində mühüm yüksəklikləri azad etdikcə döyüş ruhumuz və qələbəyə inamımız daha da artırdı. Sonra əmrə uyğun olaraq, Talış və Suqovuşan istiqamətində döyüşlərə qatıldıq. Silahdaşlarımın hər biri güclü iradə, mübarizlik və rəşadət nümayiş etdirirdi. Qarşımızda tab gətirməyən düşmən hər gün geri çəkilirdi. İrəliləməmizə Hərbi Hava Qüvvələrinin, artilleriya qoşunlarının atəş dəstəyi böyük kömək olurdu. Beləliklə, ardıcıl olaraq, Talış və Suqovuşan kəndlərini düşməndən azad etdik. Çətin döyüşlər oldu. Müharibə asan olmur. Yadımdadır ki, Talış istiqamətindəki ağır döyüşlər zamanı mühasirəyə düşdük. Qarşımıza isə vacib tapşırıq qoyulmuşdu. Nə olursa-olsun, mühasirədən çıxmalı, verilən tapşırığı yerinə yetirməli idik. Mühasirəni minimum itki ilə yarıb, düşməni geri qovmalıydıq. Həmin anda təlim-məşqlərdə öyrəndiyimiz hərbi biliklər və vərdişlər köməyimizə çatdı. Təlimlərdə real döyüşün bütün mərhələlərini dəfələrlə icra etmişdik. Düşmən mühasirəsindən çıxmağı da təlimlərdə imitasiya etmiş, buna hazırlaşmışdıq. Öyrəndiyimiz taktiki həmlələrin sayəsində düşməni yanıltmağı bacardıq. Onların düşündüyü yolla deyil, digər istiqamətlər üzrə kiçik qruplarla onların üstünə hücum etdik. Bir sözlə, düşmənə gözləmədiyi yerdən zərbə vurduq. Çətin olsa da, mühasirəni yardıq. Həmin döyüşlər zamanı yaralandım. Düşmən güllləsi burnumu sıyırıb keçdi. Bir neçə saat döyüşü davam etdirdim, sonra isə təxliyə olundum. Səyyar tibbi hospitalda müalicə alaraq yenidən döyüş meydanına qayıtdım.

**- Azərbaycanın tanınmış yazıçısı Məmməd Səid Ordubadinin "Cəbhədə qılınc, məclisdə gözəl nitqə malik olanlar qəhrəmandır" fikrini xatırlamaq yerinə düşər. Sizin kimi qəhrəmanların Vətən müharibəsində göstərdiyi şücaət, cəsarət, vətənpərvərlik böyük Qələbə qazandırdı. 44 günün sonunda Müzəffər Ali Baş Komandanın Şuşanın azad olunması, daha sonra qələbə xəbərlərini verdikdə, minlərlə insan sevinc göz yaşlarını saxlaya bilmədi. Siz bu xəbəri eşidəndə hansı hissləri keçirdiniz?**

- Təbii ki, tariximizdə və mədəniyyətimizdə Şuşa əvəzolunmaz rol oynayır. Şuşanı sevmək üçün gözlərinlə görmək vacib deyil. Qarabağın incisi olan Şuşaya hər bir azərbaycanlı vurğundur. Ona görə də mədəniyyət beşiyimizin azad olunması xəbəri hər kəs kimi məni də çox sevindirdi. Şuşanın azad olunması Böyük Qələbə demək idi. Hər kəs anladı ki, əgər Şuşa artıq düşməndən azad olunubsa, müharibənin sonuna sayılacaq günlər qalıb. Belə də oldu. Cəmi 2 gün sonra cənab Ali Baş Komandan bildirdi ki, Ermənistan tərəfi məğlubiyyətini qəbul etdi. Ağdam, Kəlbəcər və Laçın bir güllə belə atılmadan təhvil verildi. Beləliklə, Vətən müharibəsi möhtəşəm qələbə ilə başa çatdı.

**- Baş leytenant rütbəsini yeni almanız münasibətilə sizi təbrik edir, xidmətinizdə uğurlar və yeni nailiyyətlər arzulayırıq. Müsahibə üçün çox sağ olun.**

**Müsahibəni apardı:
leytenant
İbrahim MƏMMƏDBƏYOV
"Azərbaycan Ordusu"**

# Şəhidlərin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib



*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Vətənimizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan soydaşlarımızın ruhlarına ehtiram məqsədilə anım mərasimi keçirilib.*

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Vətən müharibəsi şəhidləri Fərrux Hüseynov, Rəvan Məlikov, Elnur Abışov, Fərid Məmmədov və Murad Yunusovun xatirəsinə həsr olunan anım mərasimində Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, şəhidlərin ailə üzvləri, yaxınları və döyüş yoldaşları iştirak ediblər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Mərasimdə çıxış edənlər şəhidlərimizin şərəfli ömür və döyüş yolundan, ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə göstərdikləri şücaətdən, eləcə də Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı qələbədən, bu zəfərin tarixi əhəmiyyətindən danışıblar.

Şəhidlərin ailə üzvləri və yaxınları göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Sonda şəhidlərimizə həsr olunan şeirlər, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri tərəfindən vətənpərvərliyi tərənnüm edən musiqilər səsləndirilib.

# Xalq-ordu birliyinə həsr olunmuş tədbir keçirilib



İyunun 2-də Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında xalq-ordu birliyinə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə veteranlar, orta məktəblərin şagirdləri, Müdafiə Nazirliyinin əməkdaşları, veteranlar və qazilər, vətəndaş cəmiyyəti institutunun nümayəndələri iştirak ediblər.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov tədbirdə çıxış edərək ulu öndər Heydər Əliyevin ordumuzun, eləcə də Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaranması və formalaşması tarixində rolundan danışıb. O, Vətən müharibəsində Prezident İlham Əliyevin təkcə hərbi müstəvidə deyil, həm də diplomatik müstəvidə böyük uğurlara nail olduğuna, cəmi 44 gün ərzində xalqımızı Qələbəyə qovuşdurduğunu diqqətə çatdırıb. İkinci Qarabağ müharibəsindəki dövlət-xalq-ordu birliyindən bəhs edən polkovnik yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində işləri veteran təşkilatı olaraq bundan sonra da davam etdirəcəklərini söyləyib. Hələ Azərbaycan Xalq Cümhuriyyəti dönəmində Azərbaycanda nizami ordunun formalaşdırılması istiqamətində ciddi addımların atıldığını bildirən polkovnik Cəlil Xəlilov bolşevik işğalı ilə əlaqədar bu istiqamətdəki səylərin yarımçıq qaldığını vurğulayıb. Sədr müavini yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra soydaşlarımızın keçmiş SSRİ-nin müxtəlif ali məktəblərində hərbi təhsilə cəlb edildiyini, milli hərbi kadrların hazırlanması prosesinə start verildiyini deyib.

Polkovnik Cəlil Xəlilov diqqətə çatdırıb ki, Vətən müharibəsinin Qələbə ilə başa çatmasında Azərbaycan Ordusu ilə yanaşı, xalqımız da həlledici rol oynayıb: "8 Noyabr Zəfəri məhz xalq-ordu birliyi sayəsində əldə edilib. Prezident İlham Əliyev də çıxışlarında bu vacib nüansı dəfələrlə qeyd edib, qələbənin qazanılmasında xalq-ordu birliyinin həlledici amil olduğunu vurğulayıb. Biz 8 Noyabr Zəfərinin nəticələrinin qorunub saxlanılması, birliyimizi, ölkəmizdəki sabitliyi pozmağa çalışan təxribatçı qüvvələrə qarşı bundan sonra da birgə mübarizə aparmalı, dövlətimizin başçısının, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin ətrafında sıx birləşməkdə davam etməliyik. Unutmamalıyıq ki, bizim gələcək uğurlarımız birliyimizdən, həmrəyliyimizdən asılıdır".

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Fatma Səttarova Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində tarix yazdığına diqqət çəkib, bu şanlı Zəfər sevincini xalqımıza yaşadan şəhidlərimizin ruhunun ən yüksək ehtiramla anıldığını, qazilərimizin diqqət və qayğı ilə əhatə olunduğunu bildirib. F.Səttarova Vətən müharibəsində Azərbaycan Ordusunun tarix yazdığını, xalqın hər bir fərdinin orduya, onun Ali Baş Komandanına dəstək verdiyini diqqətə çatdırıb: "Vətən müharibəsi ordumuzun, xalqımızın qəhrəmanlıq dastanıdır. Azərbaycan Ordusu 44 gün ərzində erməni faşizminə ağır zərbə vuraraq onları tarixi torpaqlarımızdan qovub, dövlətimizin ərazi bütövlüyünü təmin edib. Bu qələbədə xalqımız, Azərbaycan Ordusu Ali Baş Komandanla həmrəylik nümayiş etdirdi. Prezident İlham Əliyevin bu müharibədəki yüksək sərkərdəlik qabiliyyəti, komandanlıq bacarığı sayəsində erməni ordusu darmadağın edilib".



Tədbirdə çıxış edən Müdafiə Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi polkovnik Elvin Əzizov vurğulayıb ki, 8 Noyabr Zəfəri xalqımıza, dövlətimizə qarşı uzun illərdir davam edən erməni təxribatlarına ən layiqli cavab olub. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə cəmi 44 gün ərzində düşməni ağır məğlubiyyətə uğradan Azərbaycan Ordusu 30 il işğal altında olan torpaqları azad edib. Xalqımız mənəvi baxımdan ordu ilə sıx həmrəylik nümayiş etdirib. Hər azərbaycanlı orduya dəstəyini ifadə edib ki, bu da hərbçilər üçün çox böyük mənəvi stimula çevrilib. Azyaşlı məktəblilərin orduya yolladığı məktublarda yer alan sevgi dolu fikirlər, uşaqların çəkdiyi şəkillər, atılan hər addım əsgərlərimizi qələbəyə daha da ruhlandırıb, onların mübarizə əzmini artırıb. Məhz xalq-ordu birliyi sayəsində düşmən üzərində qazanılan parlaq qələbə əldə edilib, ərazi bütövlüyümüz bərpa olunub.



Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının əməkdaşı Rasim Mirzəyev "Şanlı qələbənin təməli: xalq-dövlət-ordu birliyi" layihəsi çərçivəsində görülən işlərdən bəhs edib, eyni adlı kitabında yer alan bəzi məsələlərə toxunub. O qeyd edib ki, layihə çərçivəsində nəşr olunan kitabda xalq-ordu birliyi, bu birliyin 8 Noyabr Zəfərinin əldə edilməsindəki əhəmiyyəti ictimaiyyətin diqqətinə çatdırılıb, bu həmrəyliyin bundan sonra da davam etdirilməsinin vacibliyi qeyd edilib.

Digər çıxış edənlər də Vətən müharibəsində şanlı Qələbənin təməlində sarsılmaz dövlət-xalq-ordu birliyinin dayandığını vurğulayıblar, qalib dövlətin vətəndaşı olmağın bəxş etdiyi qürur hissindən danışıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# Baş Klinik Hospitalda elmi-praktik konfrans keçirilib



Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında Tibb İdarəsinin Tibbi Profilaktika və Ekologiya şöbəsinin təşkilatçılığı ilə "Silahlı Qüvvələrdə COVID-19 infeksiyasının dünəni, bu günü və sabahı" mövzusunda terapevtik profilli elmi-praktik konfrans keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə ümummilli lider Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda gedən döyüşlərdə canlarını fəda edən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Konfransda COVID-19 infeksiyasının diaqnostikası, müalicə prinsipləri və digər mövzularda həkim-mütəxəssislərin məruzələri dinlənilib.



Qeyd olunub ki, Azərbaycan Ordusunda COVID-19 xəstəliyinin yayılmasının qarşısının alınması məqsədilə Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi ilə koordinasiyalı şəkildə təxirəsalınmaz tədbirlər həyata keçirilib və hazırda da bu istiqamətdə işlər davam etdirilir.

Sonda COVID-19 infeksiyasına qarşı keçirilən tədbirlərdə fərqlənən həkim və tibb işçilərinə fəxri fərmanlar təqdim edilib.

# Narkomanlığa qarşı mübarizə cəmiyyət üçün cəmiyyət vasitəsilə aparılmalıdır



*Bəşəriyyətin üzləşdiyi ciddi problemlərdən biri də insanları, insanların timsalında dövləti fəlakətə yönəldən narkomanlıqdır. Narkomanlıq cinayətkarlığa aparır, cinayətlər cəmiyyətin sosial durumunu ciddi şəkildə pozur ki, bu da cəmiyyətin sabahı adlandırılan gəncliyin mənəvi şikəstliyinə, nəticə etibarilə dövlətin dövlətçilik təsisatlarında problemlərin yaranmasına səbəb olur.*

XVIII əsrin əvvəllərindən XX əsrin sonlarına kimi narkomaniya dünyanın müxtəlif yerlərində dağıdıcı fəsadlar törətmişdir. Əgər daha geniş miqyasda, daha kəskin tədbirlər görülməsə, bu, qarşısıalınmaz təhlükəyə çevriləcəkdir. Dünya dövlətləri bu çevrilmənin qarşısının vaxtında və qətiyyətlə alınması üçün qabaqlayıcı tədbirlər görür, gərəkli dövlət proqramları reallaşdırır. Bu istiqamətdə dünyəvi, bəşəri dövlət kimi Azərbaycanda da müxtəlif zəruri tədbirlər görülüb, görülür, görüləcəkdir.

Müasir dövrdə bəşəriyyəti düşündürən qlobal problemlərdən biri ciddi bəlaya, təhlükə mənbəyinə çevrilən narkomaniyadır.

İnsanları fəlakətə sürükləyən, cinayətlərə səbəb olan narkotiklərin qanunsuz dövriyyəsi insanları tədricən məhv edir. XX yüzilliyin sonunda narkomaniya müxtəlif xalqların genofonduna sarsıdıcı zərbələr vurub, qarşısıalınmaz təhlükəyə çevrilib.

Milli Məclis 1999-cu il iyunun 18-də "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" qanun qəbul etdi. Bu qanun respublikada narkomanlığa qarşı aparılan mübarizənin sistemləşdirilməsində, məqsədyönlülüyündə, daha şəbəkəli olmasında əhəmiyyətli rol oynadı.

Narkomaniya cəmiyyətin mənəvi və əxlaqi dəyərlərinə ciddi zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən, insanların həyat və sağlamlığına böyük təhlükə yaradan, həmçinin cinayətkarlığın artmasına səbəb olan əsas amillərdən biridir. Məhz bunlara görə ümummilli liderimiz Heydər Əliyev bu növ cinayəti cəmiyyətin "sosial bəlası" adlandırırdı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 15 iyul 2000-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə üzrə Milli Proqram (2000-2006-cı illər)" müstəsna əhəmiyyətə malik oldu. Bu istiqamətdə mübarizə məhz bu sənədə əsaslanmaqla aparılırdı...

Narkomaniya orqanizmi zəiflədir, fiziki gücü azaldır. Belə olduğu halda cəmiyyətin sabahları necə olar? Dövlət, dövlətçilik necə qorunar? Narkomanlığın yayılması mexanizmi də son dərəcə qorxulu proqnozlar verir: orqanizmin zəhərlənməsi daxili orqanların, xüsusən də qaraciyərin və böyrəklərin funksiyasının pozulmasına səbəb olur. Narkomaniyanın yaratdığı "Hepatit B" virusu qaraciyər iltihabına səbəb olan çox təhlükəli xəstəlikdir. Narkomanlar arasında geniş yayılmasına ən çox narkotik maddənin hazırlanması üçün lazım olan iynə, şpris, eləcə də virus hopmuş digər alətlərin birgə istifadəsi səbəb olur. Bu zaman hər bir xəstəliyə, o cümlədən "HİV"-ə və "QİÇS" xəstəliyinə yoluxma ehtimalları da mövcuddur. Mübarizə dönməzləşməlidir ki, meyil zəifləsin, aradan qaldırılsın, belə yayılmalar olmasın.

Narkomanlığa qarşı mübarizədə səmərəliyə nail olmaq üçün aidiyyəti dövlət orqanları arasında qarşılıqlı əlaqələrin təşkil edilməsi və nəzarət mexanizminin həyata keçirilməsi məqsədilə yaradılmış Dövlət Komissiyası da, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2007-ci il 28 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş, 2007-2012-ci illəri əhatə edən "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinə qarşı, narkomanlığın yayılması ilə mübarizə üzrə Milli Proqram" da, Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı" da respublikamızda bu istiqamətdə çox ciddi mübarizə sistemi yaradıldığının təsdiqidir. Bu sistem cəmiyyətin "ağ ölümə" mübtəla olmasının qarşısını almaqda, mövcud faktların aradan qaldırılmasında yüksək mübarizə şəbəkəsidir. Cəmiyyət, bu sıradan hüquq-mühafizə orqanları şəbəkənin mübarizə daşıyıcılarıdır...

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Bu Proqramın məqsədi respublikada narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəni daha da gücləndirmək, antinarkotik təbliğatı həm məzmun, həm də forma baxımından genişləndirmək, ictimai maarifləndirmə işinin əhatəliliyini təmin etmək, cəmiyyəti bu mübarizəyə cəlb etmək və s.-dir.

Azərbaycanda sosial-iqtisadi sabitliyin təmin edilməsi, vətəndaşların sağlamlığının, cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərin qorunması həmişə dövlətin diqqət mərkəzindədir. Bunun nəticəsidir ki, narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə ümumdövlət vəzifələrinin tərkib hissələrindən biri olub. Bu istiqamətdə aparılan islahatlar narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlıq kimi cəmiyyətə dağıdıcı təsir göstərən bir problemin həlli üçün həm cəmiyyətin, həm də dövlətin və qeyri-hökumət təşkilatlarının bu istiqamətdə fəaliyyəti birləşdirilir, narkomanlığa qarşı kompleks mübarizə aparılması təmin edilir.

Gənclər arasında müxtəlif miqyaslarda və müxtəlif tədbirlərdə sağlam həyat tərzinin təbliğ olunması, narkomanlığın fəsadları haqqında istər elmi, istərsə də həyati faktlar əsasında geniş söhbətlər, müzakirələr, disputlar təşkil edilməsi yeniyetmələrin gənc kimi, gənclərin əsl vətəndaş kimi formalaşmasında son dərəcə gərəkli olardı. İctimaiyyətin diqqətinin narkomanlıqla bağlı problemlərin həllinə yönəldilməsi məqsədilə rayonun idarələrinin, müəssisələrinin və təşkilatlarının birgə fəaliyyəti nəticəyə hesablanmış tədbirlər kimi dəyərləndirilməlidir. Narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə istiqamətində rayonlararası təcrübə mübadiləsi də səmərəli olardı. Belə tədbirlərdə hüquq-mühafizə orqanlarının nümayəndələrinin iştirakı gələcək fəaliyyətin istiqamətlərini müəyyənləşdirməkdə gərəkli nəticələri təmin edərdi...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyib: "...Coğrafi mövqeyindən, ictimai-siyasi quruluşundan, inkişaf səviyyəsindən, iqtisadi vəziyyətindən, mədəni və tarixi əlaqələrindən asılı olmayaraq elə bir ölkə yoxdur ki, dövrümüzün qlobal problemlərindən biri olan narkotiklərin qanunsuz dövriyyəsi ilə qarşılaşmasın. Bu, bir daha göstərir ki, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin səmərəliliyi üçün birgə səylərlə ciddi, kəskin, barışmaz və ardıcıl tədbirlərin həyata keçirilməsi olduqca zəruridir..."

BMT-nin 1987-ci il Konvensiyasına daxil olan ölkələrin "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Bəyannaməsinə əsasən, 26 iyun "Narkomaniya və narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı Ümumdünya Mübarizə Günü" kimi qeyd olunur. Azərbaycanda bu istiqamətdə bütün günlərin mahiyyəti 26 iyun gününün mahiyyətinin eynidir, yəni, Azərbaycanda bu mübarizə müntəzəmdir, kəsilməzdir, dönməzdir...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin hüquq-mühafizə orqanları rəhbərlərinin 2009-cu il aprelin 21-də Bakıda keçirilən konfrans iştirakçılarına ünvanladığı təbrik məktubunun da mahiyyətində narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gərəkliyi dayanır: "...Terrorizm, separatizm, silahların və narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri, qanunsuz miqrasiya, cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərinin leqallaşdırılması kimi cinayətlər transmilli xarakter daşıdığından dövlətlərin birgə dinc yanaşı yaşamasına ciddi təhlükə yaradır. Ona görə də xalqlarımızın ümumi rifahına nail olmaq, təhlükəsizliyi təmin etmək məqsədilə sosial-iqtisadi, siyasi tədbirlərlə yanaşı, cinayətkarlığa qarşı mübarizənin səmərəli şəkildə həyata keçirilməsi də vacibdir..." Prezidentimizin bu kəlamlarını, bu tarixi fikirlərini yekunlaşdıran vaciblik amili dövlətimizin daxili siyasətinin tərkib hissələrindəndir...

Narkomaniya indi təkcə tibbi problem deyil, yayılma arealına və səviyyəsinə görə böyük sosial problemdir. Buna görə də ona qarşı mübarizə sosial həyatın bütün tərəflərini əhatələməlidir.

Narkomaniyanın yayılması millətin sağlam həyat tərzinə təhlükə törədir. Bu mübarizə hüquq-mühafizə orqanları və cəmiyyət üçün cəmiyyət vasitəsilə aparılır...

**Ədliyyə leytenantı**
**Azər ƏLƏKBƏRZADƏ**
**Şəmkir Hərbi**
**Prokurorluğunun müstəntiqi**

*İctimai-siyasi hazırlıq*

# İctimai-siyasi hazırlıq dərsləri hərbi-ideoloji işin mühüm istiqamətlərindəndir



Gənclərimizin dünyagörüşünün, intellektual potensialının və vətənpərvərlik hissinin yüksək olmasına orduda xüsusi diqqət yetirilir. Belə ki, xidmət keçən əsgərlər təşkil olunan döyüş hazırlığı dərslərində nəzəri və praktiki hərbi biliklərini artırmaqla yanaşı, ictimai-siyasi hazırlıq dərslərində müxtəlif mövzular üzrə informasiya bazalarını möhkəmləndirirlər. Günün nizam qaydalarına uyğun olaraq, təşkil edilən ictimai-siyasi hazırlıq dərslərində ordumuzun yaranması və inkişafı, tarixi qəhrəmanlarımız, erməni təcavüzü və başqa mövzulara da toxunulur ki, bu da əsgərin döyüş ruhuna və Vətən sevgisinə mühüm təkan verir. Görülən işlərin nəticəsidir ki, Azərbaycan əsgəri Ali Baş Komandanına, xalqına, mənəvi dəyərlərinə sadiq, qorxmaz və cəsur əsgər olaraq Vətənə layiqincə xidmət edir.

"N" hərbi hissəsində zabit Şahmar Piriyevin rəhbərliyi altında keçirilən ictimai-siyasi hazırlıq dərsində iştirak etdik. Dərs başa çatdıqdan sonra zabitlə söhbətləşdik. "İctimai-siyasi hazırlıq dərsləri hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə yönəldilən əsas fəaliyyətlərdən biridir", - deyən zabit keçirilən dərslərin dinləyicilərə milli-mənəvi dəyərlərə, dövlətə və dövlətçiliyə sədaqət aşıladığını bildirdi. "Azərbaycan Ordusunda hərbi-ideoloji işin düzgün aparılmasına hər zaman xüsusi diqqət yetirilib və bu gün də komandirlərin qarşısında duran mühüm vəzifələrdən biri şəxsi heyətin mənəvi-psixoloji hazırlığını düzgün təşkil etməkdir. Bu diqqətin təzahürüdür ki, hərbi mundiri layiqincə daşımağı özünə borc bilən Azərbaycan əsgəri ərazi bütövlüyümüzü göz bəbəyi kimi qoruyur, Ali Baş Komandanın və xalqımızın etimadını layiqincə doğruldur. 44 gün ərzində şanlı Zəfər salnaməsi yazmağı bacaran Azərbaycan əsgərinin Vətən sevgisi döyüş ruhu oldu. Bu gün Azərbaycan əsgərinin dilində bir söz dəyişməz qalır: "Qalib ordunun mundirini daşımaqdan qürur duyuram". Bu fikir bizim hərbi qüdrətimizin gələcəkdə də sarsılmaz olacağına inamı daha da artırır. Hər bir komandirin ən başlıca vəzifəsi tabeliyindəki şəxsi heyətin hərbi vətənpərvərlik ruhunda formalaşmasına çalışmaqdır. Hərbi-ideoloji işin mühüm istiqamətlərindən biri olan ictimai-siyasi hazırlıq dərslərində əsgərlərimiz Vətənə sədaqət hissinin nə olduğunu dərindən anlayırlar. Keçirilən dərslərdə şəxsi heyətə xalqımızın uzaq və yaxın tarixi ilə bağlı məlumatlar öyrədilir, həmçinin ordu quruculuğumuzun və dövlətçiliyimizin qurulmasında keçilən mərhələdən, qəhrəmanlıqlardan, qəhrəmanların həyat yolundan danışılır. Təşkil olunan dərslər sayəsində əsgərlərimizin hərbi vətənpərvərlik hissi möhkəmləndirilir, mənəvi-psixoloji hazırlığı nəzarətdə saxlanılır. Əsgərin polad intizama malik, xalqına layiq fərd kimi formalaşmasında bu məşğələlər mühüm rol oynayır".

Əsgər Kamil Qarayev Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının məzunudur. Kamildən Vətən sevgisinin onun üçün nə demək olduğunu soruşdum və aldığım cavab ruhuma sığal çəkdi. "Vətəni sevmək təkcə göz açdığımız, havası və suyu ilə qidalandığımız, boya-başa çatdığımız torpağı sevmək demək deyil. Vətən sevgisi xalqa sədaqətdir, adət-ənənələrə ehtiramdır, dili yaşatmaqdır, qəhrəmanları tanımaq və tanıtmaqdır".

Əsgər Həmid Esaqovun eyni suala cavabı belə oldu: "Vətən sevgisi mənəvi zənginlikdir. Vətənin müdafiəsində dayanan gənclər olaraq hər birimizin üzərinə düşən əsas vəzifə bu mənəvi zənginliyi özümüzdən sonrakı nəslə layiqincə ötürməkdir. Bu gün ordu sıralarında xidmət edən əsgər olaraq komandirlərimə minnətdaram ki, bizim Vətənə layiqli əsgər, vətəndaş kimi formalaşmağımızda əllərindən gələni əsirgəmirlər".

Əslən Cəbrayıl rayonundan olan əsgər Davud Ağayevin qardaşı Ramin Ağayev 44 günlük haqq savaşımızın iştirakçısıdır və Cəbrayılın işğaldan azad olunması gününü Davud həyatında ən yaddaqalan günlərdən biri hesab edir. Əsgərlər Musa Əlizadənin, Rüstəm Şıxıyevin, Tamerlan Cavadlının, Eldar Quliyevin də fikirlərini öyrəndim. Onlar da öz növbəsində Vətənə övladlıq borcunu ödəməyin qürurverici vəzifə olduğunu qeyd etdilər və nümunəvi xidmətləri ilə hər zaman başucalığı gətirəcəklərini bildirdilər.

Qürurun məğrur, yerişin mətin olsun, Azərbaycan əsgəri!

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# "Vətən mənə oğul desə..." adlı bədii qiraət və inşa müsabiqələri keçirildi



Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Silahlı Qüvvələr Gününə həsr olunan "Vətən mənə oğul desə..." adlı bədii qiraət və inşa müsabiqələri keçirildi. Müsabiqələrdə birinci və ikinci kurslarda təhsil alan kursantlar iştirak etdilər. Onlar bilik və bacarıqlarını həm şifahi, həm də yazılı nitq vasitəsilə nümayiş etdirməyə nail oldular. Müsabiqənin hər üç mərhələsindən keçən kursantların qabiliyyətlərini liseyin müəllimlərindən ibarət münsiflər heyəti qiymətləndirdi.

Çıxış edənlər bildirdilər ki, liseydə keçirilən belə müsabiqələr kursantlarda şifahi və yazılı nitq qabiliyyətini formalaşdırır. İnşa müsabiqəsi kursantların söz ehtiyatlarını zənginləşdirir, dünya görüşlərinin genişlənməsi və fikrin daha rəvan ifadə qabiliyyətinin artırılmasına xidmət edir.

Şeir müsabiqəsində kursantların şifahi nitqi yoxlanıldı, onların orfoepik qaydalara uyğun olaraq tələffüzünə, intonasiya çalarlarına, səs tembrlərinə xüsusi fikir verildi. Belə ki, şeir müsabiqəsinin qalibləri olan ikinci kursun kursantları Raul Quliyevin, Elgün Yusibovun, Anar Əhmədovun yazdıqları şeirlər münsiflər heyəti tərəfindən yüksək qiymətləndirildi. İkinci kursun kursantı Anar Əhmədovun komandirləri şəhid polkovnik-leytenant Qərib Baxşəliyevə və mayor Asiman Əliyevə həsr etdiyi şeirləri münsiflər heyətinin diqqətini cəlb etdi.

Azərbaycan Respublikasının Əməkdar artisti Azad Şükürov kursantlara yazdıqları və söylədikləri şeirlərə görə təşəkkür edərək dəyərli tövsiyələrini bildirdi.

"Vətən mənə oğul desə..." adlı bədii qiraət şeir və inşa müsabiqələrinin qalibləri fəxri fərman, diplom və müxtəlif qiymətli hədiyyələrlə təltif olundular.

**Sevil QURBANOVA**
**C.Naxçıvanski adına**
**Hərbi Liseyin müəllimi**

# Xəbərlər: hadisələr, faktlar

## Suriya ərazisində daha 16 terrorçu zərərsizləşdirilib



Türkiyə Silahlı Qüvvələri tərəfindən Suriyanın şimalında daha 16 PKK-YPG terrorçusu zərərsizləşdirilib.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyindən bildirilib.

Məlumatda qeyd edilib ki, terrorçular Suriya ərazisində "Fərat qalxanı" və "Zeytun budağı" hərbi əməliyyatlarının keçirildiyi bölgədə məhv edilib.

Onların türk hərbçilərinə qarşı terror aktı planlaşdırdıqları müəyyən olunub.

## İordaniyada təyyarə qəzasında iki hərbi pilot həlak olub



İordaniya Kral Hərbi Hava Qüvvələrinə aid təyyarənin təlim uçuşları zamanı qəzaya uğraması nəticəsində iki pilotun həlak olub.

İordaniya Silahlı Qüvvələri Baş Qərargahının məlumatında qəzanın texniki nasazlıq səbəbindən baş verdiyi bildirilib. Qəzaya uğrayan təyyarə İrbid vilayətindəki boş əraziyə düşüb. Həlak olan pilotların cənazələri Kral I Abdulla Tibb Universitetinin hospitalındakı meyitxanaya aparılıb.

## KXDR Yapon dənizi istiqamətində yaxın mənzilli 8 raket buraxıb



Koreya Xalq Demokratik Respublikası Yapon dənizi istiqamətində yaxın mənzilli 8 raket buraxıb.

Bu barədə bazar günü "Yonhap" agentliyi Cənubi Koreya hərbçilərinə istinadla məlumat yayıb. Hazırkı vaxtadək raket buraxılışları ilə bağlı hər hansı ziyan dəyməsi barədə məlumat yoxdur.

Şimali Koreya ilin əvvəlindən indiyədək silahların ondan çox sınağını keçirib. Cənubi Koreya hərbçilərinin sözlərinə görə, mayın 25-də keçirilmiş axırıncı sınaq zamanı biri qitələrarası olmaqla, üç ballistik raket buraxılıb.

## BMT: Müharibə səbəbindən 14 milyon ukraynalı evlərini tərk edib



Rusiyanın Ukraynada başlatdığı müharibə səbəbindən 14 milyon ukraynalı evlərini tərk etmək məcburiyyətində qalıb.

Bu barədə BMT-nin Ukraynadakı böhran üzrə koordinatoru Əminə Avadın bəyanatında deyilir.

"Müharibənin əvvəlindən bəri 14 milyona yaxın ukraynalı evlərini tərk etməyə məcbur olub ki, onların da əksəriyyəti qadınlar və uşaqlardır", - deyə bəyanatda bildirilir.

Müharibə səbəbindən üç milyondan çox ukraynalı uşaq təhsil prosesini yarımçıq qoyub. Həmçinin ən azı 15,7 milyon Ukrayna vətəndaşının humanitar yardıma ehtiyacı var, yüz minlərlə insan isə su və elektrik enerjisindən məhrumdur. BMT müharibənin davam etdiyi yüz gün ərzində Ukrayna ərazisində səkkiz milyona yaxın insana təcili humanitar yardım göstərib.

BMT-nin Qaçqınların işi üzrə ali komissarlığının son məlumatlarına görə, müharibə səbəbindən təxminən 7 milyon insan Ukraynanı tərk edərək qonşu ölkələrə sığınıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Hərbi hissələrdə psixoloji işə dəstək tədbirləri davam edir





Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin zabit və dövlət qulluqçularının iştirakı ilə hərbi hissələrdə tədbirlər keçirilib.

Plana uyğun olaraq bölmələrdə şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin öyrənilməsinə, hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsində komandir-rəis heyətinə köməklik göstərilməsinə dair tövsiyə xarakterli metodiki məşğələ keçirilib.

Tədbirlər çərçivəsində hərbi xidmətə yeni çağırılan gənc əsgərlərin xidmət şəraitinə uyğunlaşması və psixoloji sağlamlığının qorunması məqsədilə kollektiv, qrup, eləcə də fərdi qaydada psixoloji yardım və dəstək fəaliyyəti həyata keçirilib, onlarla söhbətlər aparılıb.

Sonda şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb və hərbi qulluqçulara xidmətlə bağlı lazımi tövsiyələr verilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# MOİK təmsilçiləri dünya çempionatında növbəti uğurlar qazandılar

***26-30 may tarixlərində Özbəkistanın paytaxtı Daşkənd şəhərinin universal idman sarayında yeniyetmələr və böyüklər arasında həvəskar universal döyüş üzrə dünya çempionatı keçirildi.***



Dünyanın 50-dən artıq ölkəsindən 700-dən çox idmançının qatıldığı çempionatda ölkəmizi Azərbaycan Universal Döyüş Federasiyası 23 idmançı ilə təmsil etdi. Çempionatın yarımfinal və final mərhələlərinə qalan idmançılarımız qızıl, gümüş, bürünc medal və diplomlarla təltif olundular.

Ümumi nəticələrə görə, yeniyetmələr arasında İldırım Quliyev (45 kq), Sadiq Kərimov (50 kq) və Adnan Babazadə (55 kq) üçüncü yerə çıxdılar. Gənclər arasında Zahid Səfərzadə (75 kq) birinci, Kənan İsgəndərzadə (85 kq) ikinci yerə layiq görüldülər. Böyüklər arasında Rasim İsmayılov (55 kq) birinci, Mehman Hüseynov (95 kq) ikinci, Orxan Şükürov (85 kq), Ağani Məmmədov (85 kq), Tofiq Niftəliyev (90 kq), Elçin Sadiqov (95 kq) və Asif Səlimli (95 kq) üçüncü yeri tutdular.

Müdafiə Nazirliyi Mərkəzi Ordu İdman Klubunun zabiti kapitan Tofiq Niftəliyev və idman aktivləri Rasim İsmayılov, Zahid Səfərzadə fərqlənən idmançılarımızdandır.

Yarışdan qayıdan idmançılarla həmsöhbət olub, təəssüratlarını öyrəndik. Ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə həyata keçirdiyi idman siyasətindən söz açan kapitan Tofiq Niftəliyev bildirdi ki, ölkəmizdə idmanın inkişafı daim diqqət mərkəzindədir. "Gənclər arasında idmana güclü maraq var. Bu maraq müstəqilliyimizin ilk illərində idmana göstərilən diqqət və qayğı sayəsində daha da inkişaf etmiş, müxtəlif beynəlxalq arenalarda üçrəngli bayrağımızın dalğalanması ilə nəticələnmişdir. Qazanılmış uğurlar Azərbaycanda idman siyasətinin düzgün qurulduğunu bir daha təsdiqləyir".

İdmançı zabit iştirakçısı olduğu çempionat haqqında təəssüratlarını da bölüşdü. İştirakçı ölkələrin güc strukturlarının nümayəndələrinin mübarizə apardığı çempionatdan söz açdı, yarışın çətin və mürəkkəb qaydaları barədə məlumat verdi. “İlkin mərhələdə maneələr zolağını keçən idmançı odlu və soyuq silahdan istifadə edərək hədəfi vurur. Bu mərhələdə müvəffəqiyyət qazanan idmançı mübarizəni rinqdə davam etdirir. Universal döyüş üzrə yarışda qələbə qazanmaq üçün fiziki və hərbi hazırlıq səviyyən yüksək olmalıdır. Bütün mərhələləri uğurla başa vuran yetirmələrim Rasim İsmayılov və Zahid Səfərzadə birinci yerə layiq görüldülər. Bütün yarışlara bir millət, iki dövlətin əbədi qardaşlığının və sarsılmaz dostluğunun rəmzi kimi Türkiyə və Azərbaycan bayraqlarıyla çıxdıq. Qələbəmizi isə bütöv türk xalqına ərməğan etdik”.

Kapitan T.Niftəliyev hər dəfə ölkədən kənara yarışlara gedəndə ona ruh yüksəkliyi verən, qələbə arzulayan, diqqət və qayğısını ordu idmançılarından əsirgəməyən Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını, üzərində zəhməti olan Əməkdar məşqçi mayor Şahin Arzumanova təşəkkürünü bildirdi.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

*Maraq dünyamız*

# Aypara Adası



Aypara Adası (ing. Half Moon İsland) - Cənubi Şetland Adaları arxipelaqında, Antarktida Yarımadası yaxınlığında yerləşən kiçik aypara şəklində bir adadır. Ada Antarktika yarımadasından 120 km aralıda, Şpitsbergen arxipelağına aid olan Edj adasının Cənub-Şərq sahillərində yerləşir. Adanın uzunluğu 2 km-dir.

Adada suitilər və pinqvinlərin böyük populyasiyası var. Bu heyvanları izləmək məqsədilə ada turistlərin sevimli məkanına çevrilib. Adanı ziyarət etmək yalnız icazə ilə mümkündür. Bu qayda adanın faunasını qorumaq məqsədi ilə 1973-cü ildən tətbiq olunub.

Aypara adası Antarktida adaları arasında nisbətən əlverişli buxtası ilə seçilir. Sahilləri yosunlarla örtülüdür. Sahil sularına yaxın balinaları müşahidə etmək olar.

Adanın adı kəşfiyyatçı Hendrik Donker tərəfindən 1663-cü ildə verilib.

Dörd rus dənizçisi - Aleksey İnkov, Xrisanfu İnkov, Stepan Şarapov və Fyodor Veriqin 1743-cü ilin mayından gəmi qəzası səbəbindən adada 6 il yaşamalı olmuşlar. Onlardan üçü sağ qalmışdır. Yazıçı Devid Roberts bu gözəl hekayəni "Dörd nəfər Arktikaya qarşı" kitabında əks etdirmişdir.

"Arktikada sağ qalmaq" filmi də Aypara adasında lentə alınmışdır.

**"Azərbaycan Ordusu"**

# İdman

## Akrobatika gimnastikası üzrə qadın qrupu və qarışıq cütlüyümüz ilk dəfə dünya kuboku yarışlarında qızıl medala sahib olublar




Polşanın Jeşuf şəhərində akrobatika gimnastikası üzrə dünya kuboku yarışları keçirilib.

Yarışda yığma komandamızın üzvləri qarışıq hərəkətlər proqramında 2 qızıl və 1 gümüş medal əldə ediblər.

Leyla Bəşirova, Nəzrin Fərmanova, Mənsumə Məmmədzadədən ibarət qadın qrupumuz, Ağasif Rəhimov və Raziyə Seyidlidən ibarət qarışıq cütlüyümüz qızıl, Daniel Abbasov və Murad Rəfiyevdən ibarət kişi cütlüyümüz gümüş medal qazanıblar.

Qeyd edək ki, qadın qrupu və qarışıq cütlüyümüzün qazandığı nailiyyət akrobatika gimnastikası üzrə dünya kuboku yarışlarında əldə olunan ilk qızıl medaldır.

## Usta cüdoçularımız Avropa çempionatının fərdi yarışlarında 19 medal qazanıblar



Yunanıstanın Heraklion şəhərində keçirilən usta cüdoçular arasında Avropa çempionatının fərdi yarışlarına yekun vurulub.

Komandamız yarışı 9 qızıl, 5 gümüş və 5 bürünc medalla başa vurub.

Azərbaycan komandası yekun nəticələrə görə, 19 medalla ümumi hesabda birinci yeri tutub.

## Azərbaycan parataekvondoçusu Qran-Pri turnirində gümüş medal qazanıb



Bolqarıstanın paytaxtı Sofiyada keçirilən Qran-Pri turnirində Azərbaycan parataekvondoçusu İmaməddin Xəlilov (K-44, 70 kq) gümüş medal qazanıb.

İdmançımız Türkiyə və Monqolustan təmsilçilərinə qalib gələrək finala yüksəlsə də, həlledici mərhələdə Meksika idmançısına məğlub olaraq yarışı ikinci yerdə başa vurub.

Xatırladaq ki, İ.Xəlilov mayın 22-də Mançesterdə keçirilən Avropa çempionatında da ikinci yeri tutub.

## Azərbaycan cüdoçusu “Böyük dəbilqə” turnirində bürünc medal qazanıb



Azərbaycan cüdoçusu Elcan Hacıyev Tbilisidə keçirilən "Böyük dəbilqə" turnirində bürünc medal qazanıb.

Turnirdə 81 kiloqram çəki dərəcəsində çıxış edən cüdoçumuz üçüncü yer uğrunda görüşdə italiyalı Titsiano Falkoneni məğlub edib.

Qeyd edək ki, ilk yarış günündə Azərbaycan təmsilçilərindən Turan Bayramov (60 kq) bürünc medal qazanıb.

**AZƏRTAC-ın materialları əsasında**

Leytenant Qasımov Oruc Əsgər oğluna məxsus MN № 0059864 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Qəzetimizin 42-ci sayında dərc olunan çaynvordun cavabları

1. Katapult; 2. Top; 3. Poqon; 4. Nişangah; 5. Harop; 6. Ponton 7. Nüvə; 8. Əleyhqaz; 9. Zireh; 10. Hədəf; 11. Furajka; 12. Akselbant; 13. Tüfəng; 14. Giliz; 15. Zabit; 16. Tapança; 17. Arsenal; 18. Lampas; 19. Sığınacaq.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 649
Nüsxə 4673